**AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ**

AZ 1005 - Bakı şəhəri, Azərbaycan pr. 7
tel:+994 12 590 91 03; faks:+994 12 492 45 90; 590 97 47

web: www.mia.gov.az
e-mail: info@mia.gov.az

«29» 02 2020 il

№ 001-12510-1220

**Avropa Şurasının insan hüquqları üzrə komissarı**

**xanım Dunya Miyatoviçə**

***Hörmətli xanım komissar!***

Son vaxtlar Bakı şəhərində sərbəst toplaşma azadlığının məhdudlaşdırılması, polis tərəfindən toplantı iştitakçılarına qarşı kobud rəftara yol verilməsi, onların saxlanılması və inzibati məsuliyyətə cəlb edilməsi ilə bağlı müraciətinizə baxılmışdır.

Bildiririk ki, cari il fevral ayının 11-də deputatlığa namizədliyini irəli sürmüş bir qrup şəxs növbədənkənar parlament seçkilərinin nəticələrinə etiraz məqsədilə paytaxtın "28 May" metrostansiyasının qarşısındakı meydanda mitinq keçirəcəkləri barədə Bakı şəhər İcra Hakimiyyətinə xəbərdarlıq ünvanlamışlar. Metropolitenin mühafizə zonalarında toplantıların "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndi ilə qadağan edilməsi nəzərə alınaraq, Bakı şəhər İcra Hakimiyyəti tərəfindən mitinqin müvafiq tədbirlər üçün xüsusi ayrılmış yerdə keçirilməsi təklif edilmiş və bu barədə təşkilatçılar yazılı məlumatlandırılmışdır. Lakin onlar həmin tarixdə mitinqin insanların sıx toplaşdığı və nəqliyyatın hərəkətinin intensiv olduğu Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının inzibati binasının qarşısında keçirəcəkləri barədə sosial şəbəkələrdə məlumatlar paylaşmışlar. Bununla əlaqədar, fevralın 14-də təşkilatçılar Bakı şəhər Baş Polis İdarəsinə dəvət edilmiş və qanunazidd hərəkətlərin yolverilməzliyi barədə rəsmi xəbərdar olunmuşlar.

Qeyd edilənlərə baxmayaraq, 2020-ci il fevral ayının 16-da 120 nəfərədək şəxs Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının inzibati binasının qarşısında qanunsuz mitinq keçirilməyə cəhd göstərmiş, əhalinin istirahət hüquqlarını və nəqliyyatın normal hərəkətini pozan əməllərə yol vermişlər. Bu səbəbdən ətraf ərazilərdə yaşayan vətəndaşlardan Daxili İşlər Nazirliyinin "Çağrı Mərkəzi"nə aramsız surətdə daxil olan şikayətlər nəzərə alınaraq həmin əraziyə polis cəlb edilmişdir. Toplantının dayandırılması və dağılışmaq barədə "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 14-cu maddəsinə əsasən polisin dəfələrlə etdiyi xəbərdarlıqlara məhəl qoymayan aksiya iştirakçıları qanunsuz əməllərini davam etdirmişlər. Göstərilənlərlə əlaqədar polis əməkdaşları tərəfindən mitinqin xüsusi aqressivliyi ilə seçilən bəzi iştirakçıları həmin ərazidən uzaqlaşdırılmış və xüsusi vurğulayırıq ki, saxlanılan və inzibati məsuliyyətə cəlb edilən olmamışdır. Polis tərəfindən mitinqi işıqlandıran jurnalistlərin sağlamlığına zərər vurulması ilə bağlı müraciətinizdə göstərdiyiniz hal isə ümumiyyətlə baş verməmişdir. Əksinə, bəzi jurnalistlər təmkinli davranan polis əməkdaşlarının öz funksiyalarını həyata keçirməsinə qəsdən maneçilik törətmiş, onları təxribata çəkməyə çalışmış, ancaq niyyətlərinə nail ola bilməmişlər.

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun qeyri-dəqiq olması mülahizənizlə bağlı diqqətinizə çatdırırıq ki, 1998-ci ildə sözügedən qanun qəbul edilərkən müvafiq layihəyə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən müsbət rəy bildirilmişdir. Ötən 21 ildən çox müddətdə isə, həmin Qanuna, Azərbaycanın qoşulduğu beynəlxalq sənədlərə uyğunlaşdırılması məqsədilə çoxsaylı dəyişikliklər edilmiş və Venesiya Komissiyası bu normativ hüquqi aktın Avropa standartlarına tam uyğun olması barədə rəsmi mövqe ortaya qoymuşdur. Hazırda Qanunun sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması ilə bağlı normaları bir çox Avropa ölkələrin müvafiq qanunvericiliyi ilə müqayisədə daha liberal və humanistdir.

Digər tərəfdən, iştirakçılarının saxlanılmadığı və heç bir məsuliyyət tədbirinin görülmədiyi toplantının guya polis zorakılığı ilə müşayiət olunmasına dair fikirlərinizlə bağlı vurğulamaq istərdik ki, kütləvi tədbirlər zamanı asayişin qorunması, eləcə də insan və vətəndaş hüquqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi böyük təcrübəyə malik bir qurumdur və bu istiqamətlərdə qanunla müəyyən edilmiş vəzifələr konkret standartlar və prosedur əsasında yerinə yetirilir. Eyni zamanda, Daxili İşlər Nazirliyi Avropadan olan həmkarları ilə daim sıx işgüzar təmasdadır və mütəmadi məlumat mübadiləsi aparır. Müşahidələrimiz və konkret faktlar üzrə müqayisələr onu deməyə əsas verir ki, Azərbaycan polisinin toplantılar zamanı təhlükəsizliyin təmin edilməsi məqsədilə gördüyü tədbirlər Avropa dövlətlərində asayişi mühafizə qurumlarının tətbiq etdiyi standartlara nəinki tam uyğundur, hətta bir sıra hallarda xidməti vəzifələrini yerinə yetirən əməkdaşlarımızın onlara müqavimət göstərən, qanuni tələblərinə tabe olmayan, qəsdən provakativ hərəkətlərə yol verən iştirakçılara qarşı nümayiş etdirdiyi təmkinlilik və dözüm nümunəvidir. Bütün bunlar isə – polisin peşəkarlıq səviyyəsinin göstəricisi və bu sahədə ixtisaslaşdırılmış davamlı təlimlərin nəticəsi kimi qeyd olunmalıdır. Məlumat üçün bildirək ki, təkcə ötən il müxtəlif xarici ölkələrdə və respublikada təşkil olunan müvafiq tədbirlərə 16 mindən çox əməkdaşımız cəlb olunmuş və bu iş cari ildə də planlı surətdə davam etdirilir.

***Hörmətlə,***

**N a z i r** **Vilayət Eyvazov**

*Non-official translation*

**To: Ms. Dunja Mijatović**

**Council of Europe Commissioner for Human Rights**

***Dear Ms. Commissioner!***

Your request regarding the recent restrictions on freedom of peaceful assembly in Baku, ill-treatment by the police against meeting participants, their detention and administrative liability has been considered.

On February 11, a group of people nominating their candidacy for parliamentary elections addressed a warning to the Baku Executive Power to hold a rally in front of the May 28 subway station to protest the results of early parliamentary elections. Taking into account the prohibition of assemblies in subway protection zones under paragraph 2 of the third part of Article 9 of the Law of the Republic of Azerbaijan "On Freedom of Assembly," the Executive Power of Baku offered to hold the rally in a specially designated place and the organizers were informed in a written form. However, they shared information on social media that the rally would be held in front of the Central Election Commission's administrative building where the crowd and intensive traffic is overwhelming. In this regard, on February 14, the organizers were summoned to the Baku City Main Police Office and formally notified of the inadmissibility of illegal actions.

Despite the abovementioned, on February 16, 2020, up to 120 people attempted to hold an illegal rally in front of the Central Election Commission's administrative building, violating the rights of the public to rest and committing actions disrupting normal traffic. For this reason, the police were involved in the area, taking into account the complaints of citizens living in the surrounding areas, which were regularly addressed to the "Call Center" of the Ministry of Internal Affairs. According to Article 14

of the Law on "Freedom of Assembly" about the termination and collapse of the meeting, the protesters continued their illegal activities, ignoring continuous police warnings. Some participants of the rally, selected by the police for demonstrating special aggression, were removed from the area, and we highlight that they have not been detained or brought to administrative liability. The fact that you were referring to in your request, any harm done by the police for damaging the health of journalists disclosing the rally did not happen at all. On the other way, some journalists have deliberately prevented police officers from performing their duties and tried to involve them in provocation but failed to achieve their intentions.

Regarding your discretion on the Law of the Republic of Azerbaijan about "Freedom of Assembly" to be inaccurate, we would like to draw your attention that in 1998, when the mentioned law was adopted, the OSCE Office for Democratic Institutions and Human Rights expressed its positive opinion. Over the past 21 years, in order to adjust the law with the international documents that Azerbaijan has joined, numerous changes have been made and the Venice Commission has revealed its official position that this legal act is fully compliant with European standards. Currently, the norms of the law on restriction of freedom of assembly are more liberal and humanistic in comparison to the relevant legislation of many European countries.

On the other hand, related to your thoughts on the fact that a meeting of its participants was not held and no liability was allegedly accompanied by police violence, we would like to emphasize that the Ministry of Internal Affairs of the Republic of Azerbaijan has a great experience in the provision of public order during the mass events, as well as in the field of the protection of human and civil rights. In these directions, the tasks established by the law are carried out on the basis of specific standards and procedures. Meanwhile, the Ministry of Internal Affairs is on the close working contacts with its European counterparts and conducts the regular information exchange. Our observations and comparisons of factual evidence give it a reason to say that the actions taken by the Azerbaijani police aimed to ensure security during the meetings are not only in full compliance with the standards used by the law enforcement agencies in the European countries, it is an exemplary of the restraint and the tolerance,

even in a number of cases, of our employees who perform their duties against those who oppose them, who do not obey the law, and who intentionally provoke acts. All these should be noted as an indicator of the professionalism of the police and the result of continious specialized trainings in the area. Just for your information, only last year more than 16,000 of our police officers were involved in the relevant events in the various countries and in our Republic, and this activity will be continued as planned this year.

***Sincerely,***

**M I N I S T E R** **Mr. Vilayat EYVAZOV**

**Signed and sealed, FEBRUARY __ 2020**